# XIX ƏSR QARABAĞ ƏDƏBİ MÜHİTİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI TARİXİNDƏN

**Sevinc Mustafayeva**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, tarix üzrə fəlsəfə, doktoru, dosent, aparıcı elmi işçi*
*evinj.mustafayeva1958@gmail.com*

## FROM THE HISTORY OF FORMATION AND DEVELOPMENT GARABAG LITERARY ENVIRONMENT IN THE XIX CENTURY

**Sevinj Mustafaeva**

**Summary**

Since the beginning of the 19th century, Russia, which began to invade Northern Azerbaijan, including one of its ancient and mysterious corners, Garabagh, after subjugating these lands, created a new system here that could affect almost all areas of reality. However, despite the influence and pressures of the new system, as in the whole of Northern Azerbaijan, the changes in the cultural life of Garabagh, not only did not lose its connection with its centuries-old roots, but deepened this connection and brought about the Turkish-Islamic and European cultural values that reflect Eastern and Western cultures, managed to incorporate.

In this period, the leading place in Garabagh literature, which is an integral part of the Azerbaijani literature, belongs to poetry, it was due to its attachment to Eastern poetry, especially to the genius Fuzuli poetry. In the 19th century, in this region, along with famous poets who created works in various genres of classical-romantic poetry - Khurshidbanu Natavan, Gasim bey Zakir, Baba bey Shakir, Mir Mohsun Navvab and others, poets who are little known to the general public also have created, and their names is specially emphasized in the scientific literature published in recent years. Among such poets, it would be appropriate to mention the names of Karbalayi Abdulla Jani oglu, Mirza Ali Mirza Hagverdi oglu, Mirza Mehdi bey Sarıcalli, Jafargulu Khan Arif and many others.

In the period under consideration, the cultural life of Garabagh had a special place for the literary majlises that united the progressive intellectuals of the region. The first such majlis in Shusha was held by Mirza Rahim Fena and later named "Majlisi-uns", it continued its activities in the house of Khan Gyzy Natavan, under her direct leadership. Literary majlises held by M.M. Navvab and Kharrat Gulu also took place in this region. In addition to the poets who lived and created in the region, musical performers (instrumental, singer, ashiq), prominent people who created valuable works in various genres of fiction (prose, drama) played a great role in the formation and development of the literary environment of Garabagh during this period.

**Key words:** Northern Azerbaijan, Garabagh, poetry, literary majlises, music

## XIX ƏSR QARABAĞ ƏDƏBİ MÜHİTİNİN FORMALAŞMASI VƏ İNKİŞAFI TARİXİNDƏN

**Sevinc Mustafayeva**

**Xülasə**

XIX əsrin əvvəllərindən etibarən bütün Şimali Azərbaycanda olduğu kimi, Qarabağın da mədəni həyatında baş verən dəyişikliklər özünün çoxəsrlik kökləri ilə bağlılığını nəinki itirmədi, əksinə bu bağlılığı daha da dərinləşdirməklə Şərq və Qərb mədəniyyətlərini özündə əks etdirən türk-İslam və Avropa mədəni dəyərlərini özündə birləşdirməyə nail oldu.

Bu dövrdə Azərbaycan ədəbiyyatının tərkib hissəsi olan Qarabağ ədəbiyyatında aparıcı yerin poeziyaya məxsus olması, onun Şərq poeziyasına, xüsusən də dahi Füzuli poeziyasına bağlılığından irəli gəlirdi. XIX yüzillikdə bu bölgədə klassik-romantik şeirin müxtəlif janrlarında əsərlər yaradan məşhur şairlər – Xurşidbanu Natəvan, Qasım bəy Zakir, Baba bəy Şakir, Mir Möhsün Nəvvab, Mir Mehdi Xəzani və digərləri ilə yanaşı, geniş ictimaiyyətə az, bəlkə də heç məlum olmayan şairlər da yazıb-yaratmışlar ki, onların da adı son illərdə çıxan elmi ədəbiyyatda xüsusi olaraq vurğulanır.

Nəzərdən keçirilən dövrdə Qarabağin mədəni həyatında bölgənin mütərəqqi ziyalılarını birləşdirən ədəbi məclislərin xüsusi yeri olmuşdur. Şuşada belə məclislərdən ilki 1864-cü ildə Mirzə Rəhim Fəna tərəfindən yaradılmış, daha sonra “Məclisi-üns” adını almış bu məclis Xan qızı Natəvanın evində, onun bilavasitə rəhbərliyi altında fəaliyyətini davam etdirmişdir.

**Açar sözlər:** Şimali Azərbaycan, Qarabağ ədəbiyyat, poeziya, ədəbi məclislər, musiqi.

## ИЗ ИСТОРИИ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ ГАРАБАГСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЫ В XIX ВЕКЕ

**Севиндж Мустафаева**

**Аннотация**

С начала XIX века, изменения произошедшие в культурной жизни как всего Северного Азербайджана, так и Гарабага, не смогли разорвать их многовековых корней, наоборот, вобрав в себя тюркско-исламские и европейские культурные ценности, отражающие восточную и западную культуры они еще более углубили их.

В этот период основное место в гарабагской литературе, как составной части азербайджанской литературы, принадлежало поэзии, что было обусловлено ее привязанностью к восточной поэзии, в особенности к поэзии Физули. В XIX столетии в этом регионе, наряду с известными поэтами, создававшими произведения в различных жанрах классическо-романтической поэзии - Хуршидбану Натаван, Гасым бек Закир, Баба бек Шакир, Мир Мохсун Навваб и другими, жили и творили малоизвестные или же и вовсе не известные широкой публике поэты, имена которых стали особо подчеркиваться в научной литературе издаваемой в последние годы. Среди таких поэтов уместно назвать имена Кербалаи Абдуллы Джани оглы, Мирзы Али, Мирзы Хагверди оглы, Мирзы Мехди бека Сарыджаллы, Джафаргулу хана Арифа и многих других.

В рассматриваемый период в культурной жизни Гарабага особое место занимали литературные меджлисы, объединявшие прогрессивную интеллигенцию региона. Основателем первого такого меджлиса в Шуше являлся Мирза Рагим Фена. Впоследствии получив назнание «Меджлиси-унс», он продолжил свою деятельность в доме Хан гызы Натаван, под ее непосредственным руководством.

**Ключевые слова:** Северный Азербайджан, Гарабаг, поэзия, литературные меджлисы, музыка

**Giriş.** Azərbaycanın dilbər guşəsi – Qarabağ, gözəl iqlimi, əsrarəngiz təbiəti, təbii sərvətlərinin zənginliyi ilə bədii təfəkkür sahiblərinə, yaradıcı insanlara təsir göstərməklə yanaşı, eyni zamanda məkrli, qaniçən yarellilərin də diqqət mərkəzində olmuş, zaman-zaman qarətlərə və istilalara məruz qalmışdır. Tarixi inkişafının öz axarı ilə davam etdiyi müəyyən bir mərhələdə, Azərbaycan, o cümlədən onun tərkib hissəsi olan Qarabağ, çar Rusiyasının simasında təlatümlər, gözlənilməz siyasi və hərbi hadisələrlə üzləşməli oldu. Şimali Azərbaycanın və onun tərkib hissəsi olan Qarabağın mədəni həyatında baş verən dəyişikliklər qurulan yeni rejimin göstərdiyi təsir və təzyiqlərə rəğmən özünün çoxəsrlik kökləri ilə bağlılığını itirməyərək şərq və qərb mədəniyyətləriini əks etdirən türk-İslam və Avropa mədəni dəyərlərini özündə birləşdirməyə nail oldu.

XIX yüzillikdə Azərbaycan ədəbiyyatının tərkib hissəsi olan Qarabağ ədəbiyyatında aparıcı yerin poeziyaya məxsus olması onun Şərq poeziyasına, həmçinin dahi Azərbaycan şairi Füzuli

poeziyasına bağlılığından irəli gəlirdi. Bu dövrdə Qarabağda klassik-romantik şeirin müxtəlif janrlarında əsərlər yaradan şairlər sırasında Xurşidbanu Natəvan (1832-1897), Qazım bəy Zakir (1784-1857), Baba bəy Şakir (1771-1844), Mir Möhsün Nəvvab (1833-1918), Mirzə Həsən Yüzbaşov-Qarabaği (1841-1904), Məmo bəy Məmai (1849-1918), Mirzə Ələsgər Növrəs (1839-1912), Mir Mehdi Xəzani (1819-1894), Mir Həmzə Nigari-Seyid Nigari (1805-1885) kimi məşhur Qarabağ şairlərinin adlarını çəkmək olar. Bu şairlərdən bəziləri, xüsusilə Baba bəy Şakir və Qasım bəy Zakir, nəinki Qarabağ, eyni zamanda Azərbaycan satirik şeirinin görkəmli nümayəndələri olmaqla yaratdıqları əsərlərdə yaşadıqları dövrün ictimai-siyasi həyatında hökm sürən ədalətsizliyi, özbaşınalığı, rüşvətxorluğu və d. neqativ halları tənqid atəşinə tutaraq ölkədə yaranmış belə ağır və dözülməz şəraitə qarşı öz etirazlarını bildirmişlər [2, s.148]. Lakin qeyd edilməlidir ki, həmin yüzillikdə Qarabağda bu məşhur şairlərdən başqa da xeyli sayda şair fəaliyyət göstərirdi. Belə ki, Azərbaycan mədəniyyəti, o cümlədən ədəbiyyatı xəzinəsinə misilsiz töhfələr vermiş M. M.Nəvvab çox qiymətli "Təzkireyi-Nəvvab" əsərində Qarabağda möhtəşəm bir şairlər ordusunun olduğunu bildirərək, əsərində onlardan yüzdən çoxunun adını çəkmişdir [6, s.11]. Bu dövrdə yaşayıb-yaratmış, geniş ictimaiyyətə az, bəlkə də heç məlum olmayan şairlərdən bəzilərinin adları son illərdə çıxan elmi ədəbiyyatda qeyd edilməyə başlamışdır. Bu şairlər sırasına Kərbəlayi Abdulla Canı oğlu, Mirzə Əli Mirzə Haqverdi oğlu, Mirzə Mehdi bəy Əli bəy Sarıcallı, Cəfərqulu Xan Arif, Məhəmməd bəy Aşiq Zəngilani, Kapitan Rəhim bəy Uğurlu bəy oğlu, Abbas bəy, Kərim bəy Talıb bəy oğlu, Səməd bəy Vəzirzadəni (Q.b.Zakirin nəvəsi), Mir Həsən Ağa (X.Natəvanın oğlu), Mirzə Fatma Kəminə (X.Natəvandan sonra, Qarabağın ən qüdrətli qadın-şairəsi), Bəhram bəy Fədai (Q.b.Zakirin nəvəsi) və başqaları daxildir [6, ss.39-41]. Natəvanın bilavasitə özünün rəhbərlik etdiyi bu məclisin şöhrəti xeyli artdığından onun üzvlərinin sayı da artmış, Mirzə Rəhim Fəna, Mirzə Ələsgər Növrəs, Mirzə Həsən Yüzbaşov, Məmo bəy Məmai, və bir çox başqaları bu məclisin üzvləri olmuşlar [6, s.13]. Elə həmin 1872-ci ildə Şuşada dövrün görkəmli şəxsiyyəti - şair, rəssam, musiqişünas, nəqqaş, xəttat, astronom, pedaqoq kimi məşhur olan M.M.Nəvvab tərəfindən "Məclisi-fəramuşan" ("Unudulanların məclisi") adlı ikinci ədəbi məclis təşkil edildi. Şuşada bu dövrdə fəaliyyət göstərən daha bir "Məclisi-üns" məşhur xanəndə Xarrat Qulunun (1823-1883) adı ilə bağlı olmuşdur [1, s.793]. Qeyd edilməlidir ki, yuxarıda sözügedən ədəbi məclislərin musiqili-ədəbi məclislər adlandırılması daha düzgün olardı, cünki, məclis iştkrakçılarının əksəriyyəti ya müəyyən bir müsiqi alətində çalmış, ya da məlahətli səsə malik olduqlarından muğamlar, dəstgahlar ifa etmişlər. Onların sırasında olan məşhur müğənnilər – Hacı Hüsü, Məşədi Cəmil Əmirov, Məşədi İsi, İslam Abdullayev, Seyid Abdulbaği Hilalov, Ələsgər Fərzəliyev, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, peşəkar musiqiçilər – Sadıqcan, Malıbəyli Həmid, Ata Bağdagüloğlu, Qurban Primov Qarabağda milli müsiqin inkişafına və təbliğinə güclü təkan vermişlər. Mirzə Sadıq Əsəd oğlu-Sadıqcan (1846-1902) XIX yüzilliyin böyük tar ustadı olmuş, tarı rekonstruksiya edərək müasir tarı yaratmışdır [1, s.793]. Qarabağda musiqi mədəniyyətinin inkişafında və ifaçıların yetişməsində ilk musiqi məktəblərinin də rolu əvəzsiz olmuşdur. Şuşada fəaliyyət göstərən belə məktəblərdən biri məşhur xanəndə Xarrat Qulu (1823-1883) və İbrahim, digəri isə Kor Xəlifə (Molla Əli Qarabaği) tərəfindən yaradılmışdı [2, s.374]. Bu dövrdə musiqi nəzəriyyəsinə aid əsərlər də yaranmağa başlamışdı ki, bu da ilk növbədə şair, rəssam və musiqiçi M. M.Nəvvabın adı ilə bağlıdır. Onun yazdığı "Vüzül-ul-ərqam"("Musiqi sənəti") əsərində muğamların yaranması və ifa edilməsi qanunları izah edilmişdir [2, s.374].

Azərbaycan ədəbiyyatında əsası M.F.Axundov(1812-1878) tərəfindən qoyulan demokratik və maarifçilik ideyalarının təbliği bu dövrdə Qarabağ ədəbi mühitinin nümayəndələri N.Vəzirov (1854-1926), Ə.Haqverdiyev (1870-1933), S.S.Axundov (1875-1939) və d. tərəfindən davam etdirirmişdir. Onlar əsasən nəsr və dramaturgiya sahəsində çalışaraq realist bədii ədəbiyyatın ideya-bədii keyfiyyətlərlə zənginləşməsində, dram, faciə, hekayə və roman janrlarının inkişafında böyük xidmətlər göstərmişlər.

Beləliklə, qeyd etmək olar ki, çarizmin yürütdüyü müstəmləkəçilik, ruslaşdırma siyasətinə rəğmən, Qarabağın ədəbi həyatında əvvəlki dövrlərdən davam edən inkişaf nəzərdən keçirilən

dövrdə də tənəzzülə uğramamış, əksinə çoxəsrlik mədəni kökləri ilə bağlılığını daha da dərinləşdirərək sürətli tərəqqi yoluna qədəm qoymuşdur.

**Ədəbiyyat**


1. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007.
2. Azərbaycan tarixi.7 cilddə. IV cild, Bakı, 2000.
3. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. IX cild, Bakı, 1986.
4. Xalq qəzeti, 2018, 27 may, №119.
5. Кавказский календарь на 1846 г. Тифлис, 1845.
6. Qarabağ ədəbi-mədəni mühiti (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri). Bakı, 2020.
7. Qarabağnamələr. Bakı, 2006.
8. www.science.gov.az. Ə.Salamzadə. Qarabağ milli incəsənətin yarandığı əsas bölgələrdəndir. 12.10.2020.